UOT: 81.23

KÖNÜL HƏBİBOVA*

# NİTQ AKTININ PSİXOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

**XÜLASƏ**

Məqalədə kiçik bir araşdırma çərçivəsində nitq aktının psixolinqvistik xüsusiyyətlərinin təyin edilməsinə cəhd edilir. Bu sahə ilə bağlı tədqiqat aparan alimlərin fikir və mülahizələri müqayisə edilir və onlara münasibət bildirilir. Nitq nəzəriyyəsi ilə bağlı müasir dilçilikdə mövcud olan fikir ayrılıqları və bir çox mübahisəli məqamlar nitqin psixolinqvistik cəhətlərinin xüsusi tədqiqat obyekti kimi araşdırılmasını aktual edir. Məqalədə ilk dəfə olaraq nitqin psixolinqvistik xüsusiyyətləri, təbiəti ilə bağlı olaraq son illərdə aparılan araşdırmalara münasibət bildirilir və təhlil edilir. Tədqiqat zamanı müəllif iddia edir ki, ünsiyyət prosesi ilə nitq aktı eyniləşdirilə bilməz. Bütöv bir ünsiyyət prosesi zamanı bir neçə nitq aktı müşahidə eidlə bilər. Nitq aktı ünsiyyət prosesinin əsas təməl sütünu olmaqla ünsiyyətin psixoloji təsiri şərtləndirir. Aparılan araşdırma zamanı təqdim edilən fikir və mülahizələr sonda ümumiləşdirilərək belə bir qənaətə gəlinir ki, nitqin psixolinqvistik xüsusiyyətlərinə onun emosionallaığını, kommunikantların bir-birinə intelektual baxımdan uyğunluğunu aid etmək olar. Buraya həm də kommunikativ uyuşma və ictimai mühitə münasibliyi də əlavə etmək olar.

***Açar sözlər:*** *nitq aktı, ünsiyyət prosesi, psixolinqvistika, nitqin psixolinqvistik xüsusiyyətləri, manipulyasiya*

***Giriş:*** Nitq prosesi və onunla bağlı bütün koqnitiv hadisə və anlayışlar son illər dilçiliyin ən aktual məsələləri sırasındadır. Məqalədə nitq aktının psixolinqvistik cəhətlərinin işıqlandırılaraq, təhlil edilməsi dilçilikdə xüsusi aktuallığı ilə seçilən problemlərdən biridir. Məqalədə ilk dəfə olaraq dilçilk ədəbiyyatında nitq atının psixolinqvistikasına həsr edilən mövcud araşdırmalar əsasında onun psixolinqvistik cəhətlərini geniş şəkildə işıqlandırılması *məqalənin elmi yeniliyini* şərtləndirir. Bu istiqamətdə aparılan tədqiqat zamanı *təsviri və müqayisəli-təsviri metod* əsasında qeyd edilən məsələlərin araşdırılması nəzərdə tutulur.

Ünsiyyət prosesinin əsasını təşkil edən nitq aktı uzun illər sadəcə dilçilərin tədqiqat obyekti olmasına baxmayaraq, həmhüdüd elm sahəsi olan psixolinqvistikanın da əsas predmeti hesab edilir. Nitqin ünsiyyət zamanı insanlara göstərdiyi psixoloji təsiri araşdırmazdan əvvəl, düşünürük ki, nitq aktının əsas psixolinqvistik xüsusiyyətlərinin müəyyən edilməsi olduqca vacibdir.

Dil psixologiyası və psixolinqvistika mahiyyət etibarı ilə eyni məsələyə müxtəlif yanaşmanı özündə ehtiva edir: insan nitqi necə formalaşır və bu psixikada hansı yeri tutur. Fərq ondadır ki, psixolinqvistika məsələyə daha çox linqvistik, dil psixologiyası isə psixoloji cəhətdən yanaşır.

Psixolinqvistika mənşə etibarı ilə beynəlmiləl elmi sahədir: müxtəlif millətlərdən və ölkələrdəndir bu sahədə çalışan və tədqiqat aparan alimlərdən olan V.Humboldt, Blumfild, N.Xomski, Şerba və b. Öz araşdırmaları ilə nitq nəzəriyyəsinə öz töhvələrini vermişlər. Vıqotskiy, Luriya, Svetkova, Xomskaya və s. — bu sahədə yazılan fundamental əsərlər məhz bu adlarla bağlıdır.

Psixolinqvistika müasir elmdə bəzən neyrolinqvistika ilə eyniləşdirilsə də, bu iki elmi istiqamət bir-birindən əsaslı şəkildə fərqlənir. Belə ki, neyrolinqvistika neyropsixologiyanın bir hissədir. Neyrolinqvistika kəllə-beyin zədələnməsi, insult keçirmiş insanlarda nitqin bərpası, eyni zamanda anadangəlmə nitq qüsuru olan uşaqlarda qüsurun aradan qaldırılması ilə məşğul olur. Dil psixologiyası isə, əslində, yeni bir elm sahəsi kimi Şimali Amerikada yaranaraq, insanlara doğma və ya əcnəbi dilin mənimsənilməsi sahəsində xidmət edir.

Post-sovet məkanında bu sahədə uğur qazananlardan A.R. Luriyanın adını xüsusilə qeyd etmək lazımdır. Onun "Dil və şüur" [Luriya: 1979] adlı əsəri psixolinqvistika sahəsinə böyük töhvədir. Azərbaycan dilçiliyində isə qeyd edilən sahə ilə tədqiqat aparanlar cərgəsində müasir dövrün tədqiqatçılarından olan M.B. Əsgərov və Z.Q. Musəvinin elmi yaradıcılığını xüsusilə qeyd etmək olar. Belə ki,

* Filologiya üzrə fəlsəfə doktoru, dosent; AMEA Nəsimi adına Dilçilik İnstitutu Kompüter dilçiliyi şöbəsi, aparıcı elmi işçi

M.B. Əsgərov Azərbaycan dilçiliyində yeni bir istiqamət ortaya qoyaraq onu psixolinqvistik deyil, linqvo-psixoloji vəhdət nəzəriyyəsi adlandırır. Tədqiqatçı irəli sürdüyü bu nəzəriyyə həm ayrıca götürülmüş sözün və ya formanın, həm söyləmin və ya nitqin yaranma və mənimsənilmə mexanizmini, həm də ümumilikdə dil sisteminin mahiyyətini izah etməyə imkan verdiyini iddia edir. Bu arqument əsasında müəllif qeyd edir ki, klassik psixolinqvistik konsepsiya, nəzəriyyə və mülahizələrdən əsaslı şəkildə fərqlənsin deyə, onun irəli sürdüyübu yeni nəzəriyyənin adında psixolinqvistik nəzəriyyə deyil, məhz linqvo-psixoloji nəzəriyyə ifadəsinin işlədilməsi daha məqbuldur [Əsgərov: 2015, s. 33].

Z.Q. Musəvi isə isə ilk dəfə olaraq xarici söz və ifadələrin uşaq nitqində mənimsənilməsinin psixolinqvistik məsələləri ilə bağlı geniş bir elmi araşdırma apararaq belə bir qənaətə gəlir ki, nitq yeni danışmağı oyrənən uşaqın böyüdüyü mühitdə kommunikativ istiqamətli olduqda xarici dil sözlərinin mənimsənilməsi daha asan baş verir [Musəvi: 2015, s. 37]. Deməli, nitqin komunikativliyi onun psixoloji və koqnitiv təbiəti ilə birbaşa əlaqəlidir.

***"Nitqi subyekt" və "nitqi davranış" anlayışları:*** "İnsan dili" dedikdə, biz kodların mürəkkəb sistemini nəzərdə tuturuq. Bu kodlar sistemi (kombinasiyası) predmet, əlamət, hərəkət və yazılışa münasibət bildirərək məlumatın ötürülməsi və onun müxtəlif sistemlərə daxil edilməsində kodlaşma funksiyasını yerinə yetirir" [Luriya: 1979, s. 111]. Bütün bu əlamətlər yalnız insan dili üçün xarakterikdir. Kodların bu sitemi sərbəst düşüncənin formalaşmasına, kateqorial şüurun təşəkkül tapmasına gətirib çıxarır.

Nitqin yaranmasının bir neçə məqsədlər zəncirindən, sisiləsindən ibarətdir: tələb, ünsiyyət, fikri daha aydın şəkildə ifadə etmək. Dioloji nitq zamanı isə, sadəcə, həmsöhbətin suallarına cavab vermək istəyi dominantlıq təşkil edir və cavab verənin burada heç bir xüsusi məqsədi olmur. Müstəqil monoloji nitqin əsas qayəsi isə sualın və ya məsələnin qoyuluşu, subyektin niyyəti və s. öndə durur.

Ünsiyyətə girərkən nəzərə almaq lazımdır ki, bu, dilin əsas təzahür formasıdır, onun varlığının bütün dövrlər üçün aktual olan reallığıdır. Bu baxımdan biz "nitqi subyekt" anlayışı ilə üz-üzə dayanırıq. Nitqi subyekt dedikdə, ünsiyyət zamanı unikal, təkrarolunmaz kommunikativ aktı yaradan və real mövcud olan insan nəzərdə tutulur. Nitqi subyekt gerçəkliyin konkret zaman kəsiyində baş verən hadisələri dərk edir, onlara münasibət bildirir, dəyərləndirir və bu barədə müəyyən məlumat ötürmək bacarığına malik olur. Bu subyekt özündə yalnız əldə edilmiş biliyi ehtiva etmir, eyni zamanda qazanılmış biliklər əsasında öz intellekti hesabına məqsədinə nail olmaq üçün yenilərini əldə etmək qabiliyyətinə malikdir.

T.Q.Vinokurla razılaşaraq, qeyd etməliyik ki, nitqi davranış – "nitqi davranışların məcmuyu linqvistik baxımdan nitq zamanı dildən istifadənin dildaxili qanunauyğunluqlarla müəyyənləşməsi, ekstralinqvistik aspektdən isə nitqi fəaliyyətin sosial-psixoloji şərtlərlə formalaşmasını nəzərdə tutur" [Vinokur: 2016]. Nitq fəaliyyətini formalaşdıran ekstralinqvistik amillərə milli davranış xüsusiyyətləri, coğrafi şərait, tarixi faktlar, sosial hadisələr, adət-ənənə, mənəviyyat və s. aid edilir.

Şifahi kommunikasiyaların intensivliyi və onların malik olduğu təsiredici qüvvə kifayət qədər məlumdur. Tarix boyu "döyüş qabağı söylənən dəhşət, düşmənə nifrət saçan, döyüşçüləri qələbəyə ruhlandıran nitqləri (müqayisə et: "hoydu, dəlilərim, hoydu..." ("Koroğlu" dastanı), tanrıya müraciətləri, peyğəmbər vəhylərinin psixoloji yükünü ("Tövrat", "Quran"), insanın özünü təsdiqinin ifadəsi olan söz sənəti örnəklərini, natiqlərin parlaq nitqlərini yada salaq" [Əliyev: 1994, s. 46]. Bu məqamdan çıxış edərək, N.Bolışeva V.Humboldtun fikirləri ilə səsləşən belə bir ideyanı dəstəkləyir ki, dil insanı dərk etmə, düşünmə və sosial davranış normalarını qəbul etməyə vadar edir. "Biz yalnız dilimizdə mövcud olanı dərk edə, anlaya və həyata keçirə bilərik" [Bolışeva: 2006, s. 3]. Hətta eksperimental fonetika ilə məşğul olan tədqiqatçılar belə, qeyd edirlər ki, insan yeni olanı deyil, adət etdiyini eşidir [Şerba: 2008, s. 200].

V.A.Zvegintsev isə bu ideyanı belə izah edir: "Dilçilər özləri üçün də gözlənilməz olaraq, müəyyən ediblər ki, insanın dil atmosferinə dalaraq düşündüyü, fəaliyyət göstərdiyi, qurub-yaratdığı şəraitdən faktiki olaraq, lazımi nəticələr əldə edilməyib. Bu baxımdan dil insanın insan kimi mövcud olması üçün əsas şərtlərdən biridir və dil hər bir halda insanın

düşünülmüş və düşünülməmiş davranışını formalaşdıran psixoloji parametrlərdən biri kimi çıxış edir" [Zvegintsev: 2007, s. 33]. Dil işarəsi öz-özlüyündə artıq ünsiyyətin silahı, dərketmənin texnikasıdır [Leontyev: 2008, s. 108]. Məhz bu məqamı nəzərə alan V.Humboldt, A.S.Barxudarov, V.Vundt, A.M.Peşkovski, L.P.Yakubinski, E.Sepir, F.de Sössür, M.M.Baxtin, A.A.Potebnya, Y.V.Rojdenstvenski, E.D.Polivanov, A.A.Leontyev, V.V.Bibixin, M.K.Petrov və başqaları mətnlərin psixoloji təsirə malik olması xüsusiyyətinin araşdırılmasına xüsusi maraq göstərmişlər.

Düşüncənin nitqlə ifadəsi geniş mənada qarşılıqlı anlaşmanın yaranmasına, işlərin təşkili və planlaşdırılmasına, əldə edilmiş nəticələrin qiymətləndirilməsinə və s.yə xidmət edir. Qeyd edilir ki, "insan beyni sözü ikili üsulla qəbul edir:

– rasional (məntiqi);

– obrazlı (emosional).

Bir çox sözlər özündə "pis" və ya "yaxşı" anlamında emosional qiymətləndirmə xüsusiyyətini ehtiva edir. Bununla da onlar müəyyən assosiativ görüntülü, eşidilən və hiss oluna biləcək obrazlar yaradır" [Qorbatyuk: 2008, s. 20]. Sözlərlə manipulyativ təsir göstərdikdə insanın özündə qeyri-iradi olaraq nəyəsə neqativ və ya pozitiv münasibət formalaşdırmaq mümkündür. Ş.Balli bu barədə belə qeyd edir ki, əgər dili nəzərdən keçirsək, həmsöhbətlərin hər birinin qarşı tərəfə öz şəxsi fikrini yürütmək məqsədi ilə nitqin onun əlində əsas silah olduğunu görərik [Balli: 2001, s. 104]. J.Maruzo isə buna öz fikrini bu şəkildə ifadə edir: "Həmsöhbətlərin hər biri digərinə təsir göstərmək, onu da özü kimi düşünməyə vadar etmək və qabaqcadan onun etirazına son qoymaq istəyir" [Maruzo: 2004, s. 99].

***Nitqin psixolinqvistik cəhətləri:*** Məlumdur ki, dil insanlararası ünsiyyətin ən vacib vasitəsidir. Ünsiyyət aktı formal və ya qeyri-formal, işarəvi və ya semantik və s. tipli olmasından asılı olmayaraq, çox mürəkkəb linqvo-psixoloji struktura (quruluşa) malikdir. Psixoloji baxımdan ünsiyyət həmişə kommunikativ məsələnin həlli prosesidir. Bu proses də öz növbəsində müvafiq olaraq bir neçə mərhələlərə bölünür. A. A. Leontyevin fikrincə, ilkin mərhələ kommunikativ çərçivədə uyğunlaşmadır [Leontyev: 1983, s. 31]. Belə ki, insanın nəyi və necə deməsi onun harada, hansı şəraitdə və kiminlə ünsiyyətdə olmasından asılıdır. Kommunikativ şərtlər daxilində uyğunlaşma ünsiyyətin şəraiti, məqsədi, həmsöhbətlərin şəxsi keyfiyyətləri və s.ni özündə ehtiva edir. Bu uyğunlaşmanın xarakteri ünsiyyət şəraitindən asılı olaraq dəyişə bilər, belə ki, uyğunlaşma bəzən minimuma enir – insanlar hazır formullardan istifadə edərək avtomatik olaraq ünsiyyətə girirlər və bu zaman onlar arasında böyük sədlər mövcud olur. Eyni zamanda bu qəbil ünsiyyət məhdud zaman çərçivəsində davam edir. Digər bir halda isə insan yeni olan situasiyada az tanıdığı biri ilə ünsiyyət qurarkən ünsiyyətə qədərki dövr çərçivəsində və eləcə də ünsiyyət zamanı qarşı tərəfin davranışını müşahidə etməklə özü üçün münasib olan üsullar arasından qarşı tərəfə müvafiq olanını seçir və ünsiyyəti də elə seçilmiş keyfiyyətlər üzərində qurmağa çalışır.

D.Hayms qeyd edir ki, dil modelləri ünsiyyət davranışı və sosial həyata müvafiq müxtəlif nitq formalarını özündə ehtiva etməlidir. O, kommunikativ bilikləri bir neçə sektora (sectors) ayırmaqla, qeyd edir ki, hər bir söz və ya ifadə iki nöqteyi-nəzərdən təhlil oluna bilər:

1) Söz və ifadələrin qrammatik xüsusiyyətləri;

2) Söz və ifadələrin mövcud ünsiyyət şəraitinə, sosial mühitə münasibliyi [Kara-Murza: 2018, s. 155].

Maraqlıdır ki, müəllif bu məqamda kommunikativ bilikləri bir neçə sektora ayırsa da, onların eksplisit xarakterindən bəhs etmir. O, qeyd edir ki, C.Ostin nitq aktının uğurundan bəhs edərkən D.Haymsa istinad edərək, söz və ifadələrin mövcud ünsiyyət şəraitinə, sosial mühitə münasibliyinə daha böyük önəm verir [Kara-Murza: 2018, s. 191]. Yəni, nitq aktı və ya nitqin məzmunu, konteksti ictimai mühitlə, ünsiyyət şəraiti ilə tərs mütənasib olduqda nitq uğursuz hesab edilir və bu zaman nəzərdə tutulan ünsiyyət baş tutmur və ya qısa müddətli olur.

İ.S.Borozdina relyasion nitq aktlarından bəhs edərkən C.Ostin tərəfindən irəli sürülən konsepsiyanı inkişaf etdirərək nitqi müasir koqnitiv dilçilik, psixolinqvistika və ənənəvi dilçiliyin son nailəyyətləri əsasında nəzərdən keçirir. Onun tədqiqatlarının əsas obyekti önlüklərdir. Müəllif tədqiqat zamanı belə bir obyektin

seçilməsini onunla əsaslandırır ki, nitq aktının tədqiqatı zamanı iki təbii amil mütləq nəzərə alınmalıdır: koqnitiv və epistemik. Müəllif A.Ye.Kibrikin ideyalarını dəstəkləyərək qeyd edir ki, insan təfəkküründə əks olunan və təhlil edilən qnosseoloji obrazlar kimi gerçəkliyin elementlərinin dil vahidlərində necə təcəssüm etməsi və bunun fonunda təfəkkürün strukturu və dinamikası müəyyən edilməlidir [Borozdina: 2012, s. 1-6].

Psixolinqvistik nöqteyi-nəzərdən relyasion nitq aktlarının tədqiq edilməsinin kompleks postulatları, müəllifin fikrincə, A.A. Leontyevin nitq nəzəriyyəsinə və A.A.Zalevskayanın insanın perseptiv-affektiv-koqnitiv bazasının giriş vasitəsinə və fərdin əsas dəyərlərindən biri olan söz konsepsiyasına əsaslanmalıdır. Bu cür yanaşma nitq aktının dinamik araşdırılmasına geniş şərait yarada bilər. Bu kompleks yanaşmada üçüncü tərəf ənənəvi dilçilikdə yaranmış təhlilin komponentləridir. Daha dəqiq ifadə etsək, bunlar məkan münasibətlərini ifadə edən leksik vahidlər arasında mövcud olan sintaqmatik və paradiqmatik münasibətlərin müəyyən edən komponentlərdir. Rus dili əsasında tədqiqat aparan müəllif qeyd edir ki, bu cür yanaşma məkan münasibətlərin verballaşmasının əsəas vasitələri olan önlüklərin semantik və konseptual təhlilinə söykənməlidir.

L.V. Kasyubanın tədqiqatlarında isə nitqdə paremiyaların psixolinqvistik təbiəti təhlil edilir. Psixolinqvistikanın əsas məsələləri ilə eyni sırada müəllif paremiyaları dil təfəkkürünün bir faktı kimi nəzərdən keçirir. Bununla da psixolinqvistikanın hüdudları genişlənir. Bu tədqiqatında müəllif qeyd edir ki, bir çox ciddi tədqiqatlarda paremioyadan söhbət açıldıqda mütləq onun linqvistik mahiyyətinə toxunulur, lakin bu məsələ lazımi şəkildə işıqlandırılmır. Araşdırmasını atalar sözləri əsasında reallaşdıran tədqiqatçı qeyd edir ki, paramçeyinaın əsas xüsusiyyəti onun əslində bir mətn parçası olmasından ibarətdir. Bu mətn parçalarında tarixi bilik və təcrübələr nəsillərdən nəsillərə ötürülür və ya yeni-yeni situasiyalara uyğun olaraq təhrif edilir. Faktiki olaraq atalar sözlərinin mətni hər hansı bir mətn daxilində intertekstir. İntertekstuallıq isə öz növbəsində paremiyanın ən fundamental xüsusiyyətiridir [Kasyuba: 2012, s. 4-7].

K.V.Kemova isə öz məqaləsində “medidiskursu” praqmalinqvistika, psixolinqvistika və üslubiyyat baxımından araşdıraraq qeyd edir ki, memdiadiskurs və midamətn bir-biri ilə sıx əlaqədədir. Burada müəllif kommunikasiyanın üç psixolinqvistik cəhətindən bəhs edir. Birincisi kommunikasiya prosesində təsir vasitəsi kimi resipientin anlayış sahəsinə ətraf gerçəklik haqqında elə bir yeni məlumat və biliklər daxil etməlidir ki, bunların təhlili ilə o, öz davranışını və ya ətraf aləmə olan münasibətini dəyişsin. Müəllif bu təsir növünü məlumatlandırma üzərindən həyata keçirilən təsir adlandırır [Kemova: 2012, s. 34-42]. Təsirin ikinci üsulu resipientin anlayış sahəsini yeni elementlər tətbiq etmədən dəyişməklə, yəni resipientin hadisələr və onlar arasındakı əlaqələrin anlamasını dəyişməyə köklənir. Bu da məlumatlandırma üzərindən təsirdir, lakin daha yeni bir müstəvidə həyata keçirilir. Belə ki, resipient üçün artıq məlum olan hadisə ona edilən təsir sayəsində təhrif edilir. Məsələn, döyüş bölgəsində dinc əhalinin kimlər tərəfindən qətlə yetirilməsi haqqında məlumat verildikdə, resipient qeyd edilən bölgədə qətliamın törədildiyi barədə artıq məlumatlı olur. Üçüncü təsir üsulunda isə anlayış sahəsinə heç bir yenilik əlavə edilmir, sadəcə adresant artıq mövcud olan məlumat və ya bilik bazasından istifadə edərək resipientin məlum hadisə və elementlərə olan münasibətini dəyişməyə cəhd edir. Bu təlqinetmə üzərindən həyata keçirilən təsirdir. Belə ki, bu zaman biz resipientə heç bir yeni məlumat vermirik, onun artıq bildiklərini yeni açalarda təqdim edirik. Beləliklə, apardığı nəzəri araşdırma əsasında müəllif belə bir qənaətə gəlir ki, mediadiskursa belə bir tərif vermək olar: mediadiskurs kütləvi media sahəsində müəyyən biliklərin, qiymətləndirmələrin, obyektlərin və onların obrazlarının çoxtərəfli linqvistiv və paralinqvistik vasitələrin resipientə daha effektli təsir edəcəyi mediamətn yolu ilə resipientə ötürülməsinə köklənən, tematik cəhətdən fokuslanan, kommunikativ və ictimai-mədəni cəhətdən şərtlənən nitqi-təfəkkür fəaliyyətidir [Kemova: 2012, s. 42].

***Nəticə:*** Apardığımız bu araşdırma çərçivəsində belə bir qənaətə gəlinir ki, nitqin əsas psixolinqvistik xüsusiyyətlərinə aşağıdakılar aid edilə bilər: nitqin emosionallığı, nitq aktı iştirakçılarının intellektual səviyyələrinin uyğunluğu, kommunikativ uyuşma, nitq aktının ünsiyyət şəraitinə və ictimai mühitə münasibli-

yi, dil vahidlərindən və vasitələrindən doğru-dürüst istifadə.

Koqnitiv aktların əsasında birbaşa olaraq nitqi təsir dayanır. Nitqi təsir vasitəsilə insanların biliklər bazası, ətraf aləmə olan münasibəti və s. davranışlarını dəyişmək mümkündür.

Tədqiqat zamanı təqdim edilən materiallar və irəli sürülən fikir və mülahizələr, düşünürük ki, bu sahə ilə bağlı aparılan araşdırmalar üçün əhəmiyyətli ola bilər.

## ƏDƏBİYYAT:

1. Əsgərov M.B. (2015). Linqvo-psixoloji vəhədət nəzəriyyəsi. Bakı, Elm və təhsil, 192 səh.
2. Əliyev K.Ə. (1994). Natiqlik sənəti. Bakı, Azərnəşr, 160 səh.
3. Musəvi Z.Q. (2015). Xarici söz və ifadələrin uşaq nitqində mənimsənilməsinin psixolinqvistik məsələləri, fil.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis.n avtoreferatı. Bakı, 40 səh.
4. Балли Ш. (2001). Общая лингвистика и вопросы французского языка. Москва, Эдиториал УРСС, 416 с.
5. Болышева Н.Н. (2006). Развитие языка в условиях глобализации: (социально-философский аспект): автореф. дис. на соиск. учен. степ. канд. филос. наук. Красноярск, 22 с.
6. Бороздина И.С. *Теоретические аспекты комплексного моделирования реляционных речевых актов / Теория языка и межкультурная коммуникация.* Курск, 2012. № 1, с. 1–6.
7. Винокур Т.Г. (2016). Говорящий и слушающий : варианты речевого поведения. Изд. 5-е. – Москва, URSS ЛЕНАНД, 171 с.
8. Горбатюк В.С. (2008). Методы манипуляции в рекламе. Владивосток, 80 с.
9. Звегинцев В.А. (2007). Предложение и его отношение к языку и речи. Москва: Эдиториал URSS КомКнига, 306 с.
10. Кара-Мурза С.Г. (2018). Манипуляция сознанием. Москва, Родина, 430 с.
11. Кацюба Л.Б. *Психолингвистика и паремия: к вопросу о соотношении понятий* / Вестн. Южно-Урал. гос. ун-та. Сер. Лингвистика. Челябинск, 2012. № 2 (261), с. 4–7.
12. Кемова К.В. Медиадискурс как объект междисциплинарного исследования / Вестн. Нижегород. гос. лингв. ун-та им. Н.А. Добролюбова. Н. Новгород, 2012. № 18, с. 34–42.
13. Леонтьев А.А. 1983. Психолингвистические проблемы семантики. Москва, Наука, 285 с.
14. Леонтьев А.А. 2008. Психология общения. 5-е изд., Москва, Смысл Academia, 365 с.
15. Лурия А.Р. 1979. Язык и сознание. Москва, Изд-во Моск. ун-та, 320 с.
16. Марузо Ж. 2004. Словарь лингвистических терминов. Москва, УРСС, 435 с.

**Konul HABIBOVA**

## PSYCHOLINGUISTIC FEATURES OF THE SPEECH ACT

## SUMMARY

The psycholinguistic features of the speech act in the frame of a research work are attempted to identify in the article. The opinions and views of the scientists researching in this field are compared and commented. Existed differences of opinion and many controversial issues relating to the theory of speech in the modern linguistics are relevant to research as a special research object of the psycholinguistic features of the speech. For the first time, the last researches relating to the psycholinguistic features, nature of the speech are commented and analyzed in the article. The author claims that the speech act can not be identified with the communication process during the study. A few speech act can be observed during the whole communication process. The speech act stipulates the psychological influence of the communication with the basic building column of the process of communication. The opinion and views during the research work are summarized in the end that the psycholinguistic features may be helped to the emotionality of it, the correspondence of the communicators according to intellectuality to each other. The communicative combination and the attitude to the social condition can be added here, too.

***Key words:*** *speech act, communication process, psycholinguistics, psycholinguistic features of speech, manipulation*

**Кёнул ГАБИБОВА**

## ПСИХОЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕЧЕВОГО АКТА

### РЕЗЮМЕ

В статье делается попытка определить психолингвистические особенности речи в контексте небольшого исследования. В ходе исследования сравниваются и комментируются мнения и предположения исследователей в этой области. Споры в современной лингвистике, связанные с теорией речи и многими все еще нерешенными вопросами в данной сфере, обуславливают актуальность изучения психолингвистическую характеристику речевого процесса, как объект особого научного исследования. Впервые в статье комментируются и анализируются психолингвистические свойства речи в фоне новейших лингвистических исследований последних лет. В ходе исследования автор утверждает, что речевой процесс не может быть идентифицирован с процессом коммуникации. В течение всего процесса общения можно наблюдать несколько речевых действий. Речевой акт является стержнем процесса общения и обеспечивает коммуникацию психологическим воздействием. Научные идеи и материалы, представленные в ходе исследования, в итоге обобщаются и делается вывод о том, что эмоциональность речевого акта, а также интеллектуальное совместимость коммуникаторов можно охарактеризовать как психолингвистические особенности речи. К данным свойствам еще можно добавить коммуникативное сочетание и социальное обеспечение речевого акта.

***Ключевые слова:*** *речевой акт, коммуникационный процесс, психолингвистика, психолингвистические особенности речи, манипуляция.*